
Eşqin Surəti
"Bilirsən: sən kiminsə xəyalısan"
Tofiq Vəliyev

Tofiq Vəliyev

# Eşqin Surəti

*(Eşqi gül qoxulu qadında tapdım)*

Bakı-2019

Çox gülənin, çoxmu dərdi?! Əslində mən xoşbəxt deyildim, gülürdüm. Siz elə zənn edirdiz ki, xoşbəxtəm. Hər gülən xoşbəxt olmaz ki... Kim bilir gülən insanlar, gülüşlərinin arxasında nələr gizlədib? Çox sadə baxışla və biraz diqqətlə bunu anlamaq olar. Məsələn, səssizcə gülüb gözləri uzağa doğru baxan varsa, bilin ki, yaxın bir adamını itirib. Qəh-qəhə ilə gülüb gözlərini qırpmadan saxlayan varsa, bilin ki, uzun müddətdir acılar onu sıxmasına baxmayaraq ağlamır və bu insanlar çox güclüdürlər. Bəzən düşündüylərimiz, gördüylərimizi sarsıdar.

Bu gün yenə yorğun oyandım, pəncərəmə tərəf yaxınlaşdım. Pəncərənin qarşısında əyləşib, radionun səsini çoxaldıb papiros yandırdım. Heç asan deyilmiş səni unutmaq, hər an səsini xatırlayıram, nəfəsini, gözlərini, əllərini, qoxunu. Mən necə unudacam axı səni?! Düşünürəm ki, baş alım gedim bu evdən, bu şəhərdən, bəlkə də bu ölkədən. Bu köksümü yandıran xatirələri ancaq belə külə çevirə bilərəm. Bir tərəfdən də, səni sevdiyim bu evi, bu küçəni, bu universiteti qoyub gedə bilmirəm. Mən axı səni ilk görəndə nə ümidlər bəslədim, nə xəyallar qurdum. Amma nə oldu? Bir şeyi başa düşdüm ki, bəzən heç də heç nə düşündüyümüz, istədiyimiz kimi olmaz! Məndə də elə oldu, səni çox sevdim, çox istədim olmadı. O gözlərində, bir ömür məhbus olsam?..

Saat 13:56, dərsdən çıxıb metroya tərəf gedirdim. 28 mall-ın qarşısında yolu keçmək üçün, işıqforun qırmızı işığının yanmağını gözləyirdim. İşıqfora tərəf baxırdım və diqqətimi çəkən o təlaş, o baxış, o qorxu. Bilmədim nə idi? Amma mən səni o gün sevmişdim. Bu qədər müddətdir, yaxınımda olmusan, amma səni nədən görməmişəm? Niyə belə gec görmüşəm bilmirəm. Sənin günəş rəngli saçların, günəş şüaları ilə o qədər gözəl harmoniya yaradırdı ki, sözlə anlatmaq mümkün

deyildir. Gözlərin çox gözəl baxırdı, elə qorxa-qorxa aciz baxışların vardı ki, baxarkən ölməmək mümkünsüz idi. Həmən günü çox xoşbəxt oldum, çünki aşiq oldum. Uzun zaman sonra qəlbimdəki buzlu pərdə sökülməyə başladı, qəlbimin qaranlığı işığa qovuşdu. Bir müddət səni görə bilmədim, deyəsən dərslərə gəlmirdin. Çox üzülürdüm, ev ünvanını tapa bilmirdim yaşadığın məhəlləyə gəlim. Hər gün saat 08:30-dan 18:50-ə qədər universitetdə olurdum. Amma son 3 həftədir ki, səni görmürdüm. Bu gün yenə eynən səhər tezdən 08:30-da universitetin girişində dayandım və siqaretimdən yandırıb çəkməyə başladım. Zəng vuruldu sinifə daxil oldum. Deyəsən bu gün də gəlməyəcəksən və mən səni yenə görə bilməyəcəm. Artıq bütün ümidlərimi itirirdim. Saat 13:30 universitetin qarşısına çıxdım, siqaretimi yandırdım, qulaqcığı taxdım, uşaqların gəldiyi istiqamətə boylandım, aman Tanrım gözlərimə inana bilmirəm, sevincdən az qala dəli olacam, qəlbim yerindən çıxacaq qədər sürətli döyünür, gözlərim yaşarıb, bayaq soyuqdan titrəyən əllərim indi onu görüb əsir. Yanında bir nəfər qız vardı və bir qızda bunlardan biraz arxada qalmışdı, o qız “Nigar” deyə səsləndi. O an dönüb arxasına “buyur”- deyə cavab verdi. Onda bildim adını, Nigar imiş. Özü kimi gözəl adın varmış. Və sonra xəyal qurmağı öyrəndim… Mən səni ikinci dəfə gördükdən sonra sən universitetin giriş qapısından içəri daxil oldun. Ardınca gəldim, 505-ci otağa daxil oldun. Qrup nömrəni öyrənməyə çalışdım. Üçüncü mərtəbəyə düşdüm və dərs cədvəlinə baxdım. Orada 505-ci otaqda dərs yox idi. Daha sonra birinci mərtəbəyə düşdüm, burada 208B qrupunun dərsi olduğunu gördüm. Əhsən mənə qrupunu öyrəndim. Sənin cədvəlini çəkdim. Bundan sonra səni görmək üçün sinif otaqlarının qarşısında dayanırdım. Hər gün eyni ssenari ilə davam edirdi.

Sən dərs otağlarına daxil olurdun, mən qapının yanında, sən sinif otağından çıxırdın, mən qapının yanında. Baxırdım sənə doğru. Bir gün gözlərimiz toqquşdu, nə edəcəyimi bilmədim, əllərim dolaşdı, gözlərimi tez səndən çəkdim. Sənsə yoluna davam etdin. Dayanmadım arxanca hərəkət edirdim, kapüşonumu başıma keçirib, qulaqcığımı taxıb. Bu gün sonuncu dərsə girmədin. Arxanca düşüb metroya qədər izlədim. Qəflətən dayanıb arxaya baxdın. Mənə doğru baxırdın, ayaqlarımı saxladım. Səkidə tələsən insanlardan yerində donub qalan adamı seçmək çox asan idi. Sanki zaman donmuşdu hər kəs tələsik addımlarla irəliləyir və biz dayanıb bir-birimizə baxırdıq. Bir dəqiqə beləcə davam elədi… Sonra sən mənə doğru gəlməyə başladın. Bu dəfə də nə edəcəyimi bilmədim, tərsləyəcəyini düşündüm, qaçmaq istədim. Amma cəsarətimi yığdım, olduğum yerdə dayanıb sənin mənə doğru gəlişini izlədim. Hər nə olur olsun, bu gün sənə sözümü deyəcəkdim. Sən gəldin, salam verdin, təəccüblə nə edəcəyimi bilmədim.

_Salam, buyurun. Neçə gündür, məni izləyirsiz, universitetdə, parkda, metroda, dayanacaqda! Nə olub?

_Mm mən, bilirsiz necə?

_Iıı sözünüz varsa buyurun deyin.

_Xanım bunlar hamısı bir təsadüfdür. Bu arada hər nə qədər soruşmasaz da mən deyim, adım Fateh.

_Sağ olun!

Sən dedin və getdin. Ardından yenə dəyanıb baxırdım. Qaçmaq istəyirdim amma gücüm yox idi, qışqırıb “Nigar, dayan! Səni sevirəm

deməк!”, istəyirdim. Amma olmurdu, qorxurdum. Bundan sonra sənlə yaxın olmaq, dost olmaq qərarına gəldim. Səhər universitetin giriş qapısında səni gözlədim. Budur sən gəlirsən, qulaqcığında səslənən musiqinin ritmləri ilə yeriyirmiş kimi, və birazda meh var. Düzdür, Bakı hər nə qədər küləklər şəhəri olsa da bu gün sakit əsən mehlə əvəz olunmuşdu o şıtlaq, çılğın küləklər. Sən hər addımda mənə yaxınlaşdıqca ürək döyüntülərim daha da artırdı, sanki nəfəsim kəsiləcəkmiş kimi olurdum. Sənə tərəf baxdım, elə bil hiss elədin nəsə deyəcəyimi. Qulaqcığını çıxardın.

_Salam, necəsiz?

_Salam, çox sağ olun!

_Biraz vaxtınızı alacam, olar?

_Buyurun.

_Bilirsiz, mən sizi incitmək və yaxud da qorxutmaq istəmirdim. Sadəcə sizlə yaxından tanış olmaq istəyirdim. Sizinlə dost olmaq istəyirəm.

_Əgər dost olmaq istəyirdinizsə bunu niyə bu qədər uzadırdınız? Başdan deyərdiniz, dünənə görə də üzr istəyirəm, Fateh, mən Nigar. Tanış olmağımıza şadam.

_Məndə...

Həmən günü çox xoşbəxt idim. Həyat artıq daha gözəl idi. İlk dəfə sevdiyim biri var idi və ona yaxın idim. Bu, möhtəşəm bir duyğu idi. Bu sevinclə evə gəldim. Aha, bax bir şeyi unutmuşdum, mən tələbə idim və evdə yemək yox idi. Bax bu ola bilməz, bir də aşağı düşüb ərzaq almaq var idi. O qədər xoşbəxt idim ki, hər şeyi unudurdum. Yemək yeyib

bitirən kimi, sosial mediada axtarmağa başladım səni. Facebook-da, Instagram-da. “Nigar Əpiyeva” yazıb axtarırdım, çox profillər çıxırdı. Hamısına bir-bir səbrlə baxırdım. Səni sosial mediada tapmaq hardasa bir saat vaxtımı apardı. Amma tapmışdım... Sənə dostluq atdım, üç saat aradan sonra dostluğumu qəbul eləmişdin. Həyəcandan əllərim əsirdi, nə yazacağımı düşünürdüm. Qərara gəldim ki, bu gün heç nə yazmayım, sabah universitetdə danışaq ondan sonra daha da əlaqəmiz güclənsin yazaram. Bilmirəm necə idisə papiros papirosun ardınca yanırdı, amma vaxt getmirdi. Səhər açılmırdı ki, universitetə gəlim. Səni görmək, sənlə söhbət edəcəyəm deyə, həyəcanla səhərin açılmağını gözləyirdim. Arabir telefonu götürüb şəxsi hesabında paylaşdığın şəkillərə baxırdım. Gözlərini, üz cizgilərini, dodaqlarını, saçlarının rəngini yaddaşıma yazırdım. Allahım sevgi, sevmək bu imiş, ürəyim yerindən çıxacaq indi. Səbrim çatmır, saat hələ 3:40 “off, of” deyib təkrar yerimə uzandım. Gözümü yumuram, gözümün önünə gəlirsən, təkrar qalxıram yerimdən. Bu dəfə üz tutdum balkona doğru çay dəmlədim, papirosumu, külqabımı bir də stulu götürüb balkona çıxdım. Çox gözəl hava vardı, təbii ki payız gecələrində hava ayrı gözəl olur. Şəhərə baxıram burdan hər şey çox gözəl görsənir, səhərləri tıxac olan küçələr, indi sakitlik, insanlarla dolu olan səkilər boş, uşaqların əyləndikləri parkda uşaq yox, bu çox gözəl bir şeydir. Gecə necə də gözəl imiş…

Belə bir yerdə Özdemir Asafın gözəl bir sözü ağlıma gəlir "Gecemidir seni bana düşündüren, yoksa benmiyim seni düşünmek için geceyi bekleyen?" Həqiqətən də çox gözəl anlamı var… Saat gecə 4… Mən səni düşünməkdən gecəni yata bilmədim. Bir an öncə səhər olsun deyə yalvarıram artıq. Çaydan bir qurtum alıb, kitabımı varaqlamağa

başladım... Telefon zəngi səsi gəlirdi, ardı kəsilmirdi. Tez içəriyə keçdim, off zəngli saat imiş səhər saat 7:00-a qurmuşdum. Artıq səhər oldu. İlk iş yuxusuz gecəmdən sonra duş almaq oldu. Paltarlarımı dəyişib süfrəni hazırladım. Yemək yeyib evdən çıxdım. Küçəyə çıxanda qulaqcığımı taxıb kapüşonumu başıma keçirib dayanacağa doğru addımladım. Normal bir səhər, işə tələsən insanlar və gecikən avtobuslar, tıxaclı yollar, əyləşməyə yer tapmayan sərnişinlər, xüsusi ilə 45-dən yuxarı yaşı olan xalaların əyləşən gənclərə tərs baxışları… Bu mənzərə hər gün təkrarlanır. Hətta bir dəfə xalanın biri gəlib əliylə məni çəkib yerimdə əyləşmişdi. Mən sadəcə həmən qəh-qəhə ilə gülmüşdüm. Universitetə çatıram, ötən hər saatda həyəcanım daha da artır. Görəsən, bu gün, mənlə bufetdə oturub çay içəcək? Dünən də yazmadım, ax Fateh, axmaq Fateh. Heç olmasa indi yazıb bildirim. Telefonumu çıxarıb, sənə ilk mesajımı yazdım. "Sabahın xeyir, necəsən?" cavab özünü çox da gözlətmədi, sanki gözləyirmişsən kimi. Bir dəqiqə sonra "Sabahın xeyir, Fateh, çox sağ ol sən necəsən?" həyəcan, yenə əllərimi əsdirdi, bu dəfə nəfəs-nəfəsə qaldım. Cavab yazmalıydım. "Bir təklifim var, deyim" deyə mesaj yazdım. Bu dəfə də cavab tez gəldi. "Buyur de". İlk dəfədir ki bir qıza, həm də bu sevdiyim qızdır ona görüş rəklif edirəm. Bu çox oğlana görə normaldır, amma məndə elə deyil. Həyəcan get-gedə artırdı, qəlbim yerindən çıxacaqmış kimi döyünür. "Bəlkə bu gün saat 12:00 da görüşək?" Yazdım. Bu dəfə biraz gözləməli oldum. Hardasa 25 dəqiqədən sonra cavab yazdı. "Fateh bilirsən necədir, biz hələ təzə tanışıq, hətta birbirimizi o qədər də yaxşı tanımırıq, məncə bir müddət universitetdə görüşək, vaxt keçirdək, səni bizim qızlarla tanış edim, həm bu arada da daha yaxından tanıyaq bir-birimizi, olar mı?"

Burda nə yazacağımı bilmədim. Amma qız haqlı idi, dünən bir, bu gün iki. Nə vaxt tanıdın ki, sən qızı, qız səni? İndi də durub yazırsan ki, gəl görüşək. Cavab yazdım ki, "tamamilə haqlısan, onda bu gün səni universitetdə gözləyəcəm, yəqin olar?" Beş dəqiqədən sonra yazdı ki, "olar". Sevincimdən uçurdum. Əhvalım çox yüksək idi. Sinifdə uşaqlarda qəribə bir təəssürat, təəccüblə mənə baxırdılar, çox sevincliydim. Məni ilk dəfə idi ki, sevincli, gülən görürdülər, arabir zarafatlar edirdilər. Təbrik edirdilər, “daima belə olasan”, bu xoş halıma fənn müəlliməmizdə öz hədiyyəsini verdi, dərs danışmadım mənə 10 yazdı. Zəng vurulan kimi özümü sinifdən foyeyə doğru atdım, dərs saatlarında boş olan pilləkənlər tənəffüslərdə uşaq əlindən tərpənməy olmur, bufetdə nəsə almaq üçün dəqiqələrlə növbə gözləməli olursan, bunlar da ayrı bir maraqdı universitet həyatından. Pilləkənlərlə üzü aşağı düşdükçə içimdəki o sevinc hissi daha da artır, gözlərimin içi gülür, başımı qaçırıb heç kəsin üzünə baxmazkən, bu gün hər kəsə “salam” verirdim. Nəhayət birinci mərtəbə, foyeyə baxdım orda yox idin. Telefonumu təzəcə çıxardırdım ki, gördüm qapıdan içəri daxil olursan. Bu gün də çox möhtəşəm idin! Bir şeyi etiraf edim ki, o hər gün taxdığın fərqli rənglərdə ki, beretkalar sənə çox yaraşır. Aaa nəysə, Fateh, özünə gəl! Yaxınlaş salam ver və bufetə keç. Sənə doğru gəlmək istəyirəm, ayaqlarımı əgər yerdən ayıra bilsəm. “Əlimi mi qaldırsam, səslənsəm mi, yoxsa yaxınlaşsam mı”,-deyə düşünürdüm ki, sağ tərəfimdə gül qoxusu hiss elədim. İndiyə qədər hələ belə bir ətirlə rastlaşmamışdım. Sən çox gözəl və çox səliqəlisən! Mən səni hər görəndə nədən aşiq oluram? “Fateh, Fateh”,-deyə səsləndin, mal kimi hələ də üzünə baxıram, mən nə düşünürəm? Bilmirəm…

_Hey Fateehhh, salam.

_Mmm hı salam, Nigar.

_Nə olub? Niyə belə baxırsan?

_Səni axtarırdım.

_Ha ha ha, gözünün qabağındayam.

_Elə yox, bayaq foyedə görmədim səni elə ona görə fərqli istiqamətə baxırdım. _Anladım.

_Bufetə gedək?

_Gedək!

Özgə vaxt, birinci mərtəbədəki foyedən, bufetə 30 saniyəyə gedirdim. İndi sən yanımdasan, birlikdə addımlayırıq, bu yolun heç bitməməsini istəyirəm! Hərdən gözlərimi sənə zilləyib baxıram, Tanrı səni çox qüsursuz yaradıb. Diqqətlə baxanda, çox qəribə olduğunu hiss edirdim və ona görə də çox baxmamağa çalışırdım. Sən yenə də təlaşlı idin, gözün elə hey ətrafa baxır qorxu içində. Tələsik addımlarla olduğun yerdən uzaqlaşmaq istəyirmiş kimi gedirdin. Pilləkənə çatmışdıq ki, bir qız "salam, Nigar necəsən?"- deyə səsləndi sənə, "aaa salam, çox sağ ol! Sən necəsən?" Qız cavab verdi "yaxşıyam".

_Hara gedirsən? Haa bir dəqiqə, sizi tanış eləməyi unutdum, tanış ol bu yeni dostum Fatehdi. Fateh, bu isə Asimandır.

_Tanış olduğumuza şadam.

_Mən də.

_Biz bufetə gedirik, Asiman, gəlirsən?





_Yox, siz gedin, mənim işim var.

_Hə, oldu sağ ol!

_Sağ olun.

İçimdə qorxu hissi vardı ki, birdən o qız gələr və mən sənlə tək qala bilmiyəcəm. Şükür ki gəlmədi. Təşəkkür edirəm, Asiman, gəlmədiyin üçün. Nigarı boş masalardan birində əyləşdirib, çay yoxsa kofe içəcəyini soruşdum. Kofe içəcəyini dedi. Mən masadan uzaqlaşdım, gedib iki kofe alıb gələcəm. Masadan uzaqlaşdıqca gözüm arxaya baxır, onu seyr edirəm. Telefonunu çıxarıb nəsə məlumat oxuyur arabir gülümsünür və mən çox xoşbəxt oluram.

_Salam, zəhmət olmasa, iki kofe verərdiniz.

_Buyurun.

_Çox sağ olun!

Təkrar masaya doğru gəldim. Əyləşdim sənlə üzbəüz. Bu dəqiqə ürəyimin döyüntüsü həddən çox artıb hətta elə bilirəm ürəyim yerindən çıxacaq. Sənlə danışmaq üçün mövzu axtarıram. Tapa bimirəm, fikrimi cəmləyə bilmirəm. Çox keçmədi. Sual tapdım.

_Nigar, dərslərin necə gedir?

_Əla! Bəs səndə?

_Normal.

_Fateh, neçənci kurssan? İxtisasın nədir?

_Üçüncü kursam, Regionşünaslıq Hindistan üzrə təhsil alıram.

Hindistan sözünü eşitmişdin ki, qəh-qəhə çəkib gülməyə başladın, bilmədim mən də necə oldusa, sənə qoşuldum. İkimizdə gülürük, səsimiz özümüzdən kənara çox çıxmasa da özümüzə yetirdi. Sən gülürdün, mən gülərkən səsinə aşiq olurdum.

_Nə yaxşı Hindistan, Fateh? Hind dilində nəsə bilirsən?

_İxtisas seçimi deyək, həm də balım az idi. Çox bilmirəm. Yəni, danışacaq qədər deyil.

_Hə, amma maraqlı ölkədir.

_Nigar, haralısan?

_Bakılı, burada qalıram, 28 Mayda.

_Aha, əla!

_Sən haralısan, Fateh?

_Mən ağstafalı, burada kirayə qalıram, Nizamidə.

_Əladır ki, tək qalırsan yoxsa?

_Tək qalıram. Elə daha yaxşıdır.

_İşləyirsən?

_Aha, fotoqraf kimi.

_Aaa nə yaxşı! Xahiş eləsəm, şəklimi çəkərsən bir gün.

_Olar, vaxt müəyyənləşdirərik, gedərik çəkərəm.

_Fateh, mən dərsə gedirəm, zəngə az qalıb, sağ ol!

_Sağ ol, Nigar.

Göyün yeddinci qatındayam, çox xoşbəxtəm çox… Onunla hər dəqiqəmi yaddaşıma həkk edirdim. İlk görüşümüz idi, amma maraqlı idi. Nə qədər az da olsa bir-birimizi tanımış olduq. Belə görüşləri tez-tez təşkil etmək lazımdı. Kapüşonumu geyinib, universitetdən çıxdım. Yolla hərəkət edirəm, günorta vaxtı şəhər o qədər də sıx olmur. Amma bu insanları heç zaman anlamıram. Elə hey harasa tələsirlər, qaçırlar. Onların arasında, mən aramla addımlarımı ataraq irəliləyirəm. Bu gün çəkilişlər var və onları çatdırmalıyam. Gedim evdən aparatı götürüm. Yaxşı ki, ev yaxın idi, on dəqiqəyə evə çatırdım. Evdən təzəcə çıxırdım ki, zəng gəldi.

_Salam.

_Salam buyurun, kimdir danışan?

_Siz bu gün bizim albomu çəkməliydiniz.

_Bəli, müəllim, on beş dəqiqəyə gəlirəm.

_Gözləyirik.

Bu cütlükdür, bir həftə sonra toylarıdır. Dediklərinə görə, keçən il evlənəsi imişlər, amma Məhərrəm ayının çıxmağını gözləyirmişlər. Toy hazırlıqlarını da başlatmışdılar. Amma Məhərrəm ayının bitməyinə üç gün qalmış bəyin atası rəhmətə gedir. Toy təxirə düşməli olur. Mən anlamıram bizim insanları, Məhərrəm ayıdır, lap yaxşı, bu dünyada sevənlərin qovuşmağından gözəl başqa nə var? Bu boş-boş ənənəyə görə nə qədər qurulmamış ailə dağılır. Sonra da qız pisdir, oğlan qumarbazdır, oğlanın ailəsi ilə razılaşmadıq kimi şayiələr yayırlar, oğlan da, qızda bədbəxt olur. Buna görə, sevənlərin qovuşmağının vaxtı, tarixi,

qadağası olmaz. Özü də bunu din adı ilə etmək heç olmaz. Dənizkənarı bulvara çatıram. Deyəsən, çəkilişi burda edəcəyəm. Biraz gözlədim, hardasa üç dəqiqə falan, təzəcə papirosu yandırmışdım ki, gəldilər.

_Salam, qardaş.

_Salam, bir dəqiqə gözləyin siqaretimi çəkim sonra başlayaq, olar mı?

_Buyur, qardaş.

_Allah razı olsun.

Nigar, bu dəqiqə burda səninlə bu mənzərəni bölüşmək istəyərdim, qız ilə oğlan, çox gözəldirlər. Çox yaraşırlar, gözlərindəki o həyəcan, o sevgi. Görməyə dəyər həqiqətən də. Təlaşla bir-birilərinə elə baxırlar ki, elə bil bu dəqiqə nəsə olacaq və onlar qovuşmayacaqlar kimi. İnsan baxdıqca həvəsə gəlir, qızı gəlinlikdə gördükdə, birinci səni gəlin kimi təsəvvür elədim, yanbayan dayanmışıq. Biz də yaraşardıq. Səni gəlinlikdə, mələkləri qısqandıracaq bir gözəlliyə sahib olardın…

Ehh nəysə… Gedim qardaşı çox gözlətmiyim, şəkillərini çəkim. Sonra da evə gedim. Belə çəkilişlər adətən iki saatdan çox çəkmir, məkanlar fərqli olacaqdı və çox güman ki, üç saata yaxın çəkiliş gedəcəkdi. Hər şəkilə bir kadr düşünüb, o kadrda bizi təsəvvür edirəm. Məsələn, bizə ən çox yaraşan kadr, ikimiz də bir-birimizə baxıb gülməyimiz olar, çılğınlar kimi. Məkanlar dəyişdikcə kadrlar daha da gözəlləşir və bəylə gəlinin də istəklərini xüsusi diqqətlə qarşılayıram.



Bu iş əslində biraz səbr tələb edir. Yəni elə olur ki, bir kadr alındırmaq üçün on, bəlkə də daha çox şəkil çəkməli olursan. Yekunlaşdırırıq deyəsən.

_Qardaş, bəs edər?

_Bəli, müəllim, hardasa beş günə albomu gəlib götürə bilərsiz.

_Bəs ödəniş necə?

_30% indi, qalan faizini də albomu təhvil alanda.

Pulumu alıb evə doğru yollandım. Düzdür, hər nə qədər ağır olsa da bu işi sevirəm. Çox gözəldir. Bu gün altı saat bu albom üçün işləyəcəyəm və bütün şəkillər hazır olacaq. Sonra isə albomu yığacağam və bitəcək.

Hava hələ aydınlıqdır. Külək var, kapüşonumu başıma taxdım, yol üstü marketə gedib bir neçə alınasıları alıb evə yollandım. Görəsən, bu saatlar ərzində neyləmisən? Heç məni düşünmüsənmi? Bəs görəsən, nə vaxtsa mənə qarşı hisslərin olacaq? Bilirsən, əslində çox xoşbəxtəm bu dəqiqə, çünki həyatımda artıq biri var. O illərdi toz tutmuş qəlbimdə artıq biri var, o taxta artıq biri əyləşib. Bu çox gözəl bir şeydir. Sevgi, sən nələrə qadir imişsən?! Bir ay bundan qabaq ümidsizcə yaşayırdım. Heç nəyin olması vecimə deyildi. İndiki Fatehə baxıram çox dəyişib, bir ayda gözə çarpacaq dəyişikliklər var məndə. Ehh nə deyim, təki hər şey gözəl olsun. Sabah şənbə günüdür, əslində bir çox tələbə üçün, bu möhtəşəm bir gündür. Çünki yatırlar, dərs yox, bufetə təlaşla düşmək yox, evdə yatmaq, dincəlmək var. Amma mənim üçün elə deyil artıq, bir aydır ki, hər şənbə və bazar günləri tez qurtarsın deyə çox vaxtımı aparacaq işləri görürəm. Bu şənbə və bazar günü nə edəcəyəm bilmirəm, hər şey o

qədər ani baş verdi ki, həftə sonunu planlamağı belə unutdum. Bəlkə bu həftə sonunu Nigarla keçirək? Şəkillərini çəkmək bəhanəsi ilə çağırım. Həm şəklini çəkmiş olaram, həm də görmüş. Bu fikir ilk baxışdan mənə çox mükəmməl bir fikir kimi görünürdü. Sonra Nigarın yazdığı o mesajı xatırladım. “Bir müddət universitetdən kənarda görüşməsək yaxşıdır”. Bu planım baş tutmayacaqdı deyə fərqli bir bəhanə ilə Nigara yazmaq istəyirdim. Nigarın paylaşdığı hər şəklin açıqlama hissəsində, ya hansısa kitabdan bir fikir var, ya da hansısa filmdən bir dialoq. Bu da o anlama gəlir ki, Nigar həddən artıq kitab oxuyur və film izləyir. Mən bəhanə tapmışdım Nigara yazmaq üçün. Amma indi yazmayacam sabah axşama doğru yazaram ki, axşam da oturub filmə baxım. Sonra da təəssüratlarımı Nigarla bölüşə bilim. Ehh Nigar, sənə yaxın olmaq üçün, sənlə bir dəqiqə artıq vaxt keçirmək üçün, gör nə əzablar çəkirəm. Kaş görə bilsəydin! Mənə maraqlıdır, insan necə bu qədər aşiq ola bilər? Yəni ətrafımdakı insanlar da aşiq olurlar. Amma onlarda belə olmur, sevdiklərini görəndə sadəcə ətrafa tərs-tərs baxış atmaqdan başqa heç nə etmirlər. Sevdiklərinə çoxlu qadağalar qoyurlar, məsələn, ora getmə, onu etmə, bunu geyinmə, məndən başqa heç kimə yazma, başıaşağı gəz, o küçədən keçmə və.s kimi qadağalar. Amma mənim sevgim belə deyil ki, mənim yaşadığım, düşündüyüm sevgi bu deyil. Həm bir insan birinə çoxlu qadağalar qoyursa, demək ona güvənmir, sevmir. Çünki sevginin təməli güvəndir. Güvənmirsənsə, demək, sevmirsən. Bəzən elə olur ki, sevgilisi olan qızlardan mesaj istəkləri gəlir. Halbuki o qızları universitetdə sevgililəri ilə dəfələrlə görmüşəm. Bax o yanındakını sevirsənsə, güvənirsənsə, o da səni sevirsə, sənə güvənirsə, ay axmaq, mənə niyə yazırsan? Siz hələdə anlamamısız sevgi çox gözəl bir şeydi,

eyni zamanda çox əzablıdır. Siz bu cür sifətlə, bu cür hərəkətlərlə sevgini korladığınızı anlamırsız? O incə saf hissləri olan aşiqlərə, sevgilərə baxın utanın! Başqa heç nə demirəm. Bu fikirlərlə çətin başa çıxa biləm…

Evə də çatmağıma az qalıb. Bloka daxil olan kimi havasızlıqdan, tozdan boğazım qıcıqlandı. Bunlar da belə axmaqdırlar, nə deyəsən, yaşadıqları yeri təmiz saxlamırlar. Bir qapının önünü süpür təmizlə. Elə yatmaqla nolur ki? Utanıram! Bu insanlarla eyni yerdə yaşadığıma. Qaldığım ev yeddinci mərtəbədə idi. Bu gün lift səhərdən işləmir deyə pilləkənlə düşüb qalxıram. Təngi nəfəs olmuşam. Gərək bu siqareti tərgidim, bütün əldən düşmüşəm. Yaxşı ki, alınası hər şeyi aldım. Bu gün buranı bir də düşüb çıxa bilməzdim. Ümid edirəm, sabaha düzələr.

Nəhayət, mənzilimin qapısını açıb içəri daxil oluram. Səhər o qədər həyəcanlı, tələsik çıxmışdım ki, hər şey dağınıq qalıb. Yerimi də yığmamışam. Nəysə, baxım yemək yoxdursa, yemək bişirim. Sonra hamısını yoluna qoyaram. Nə vaxt yemək olub ki? Öz özümə deyinə-deyinə, tavanı çıxardım, kartofu soymağa başladım. Hamısını soyub bitirdikdən sonra, tavadakı yağı qızdırdım və kartofu tökdüm. Bu bişənə qədər, evi səliqəyə salacam. Yerimi yığıb, salona keçdim, bura çox səliqəsiz və çirkli idi. Külqabındakı siqaret kötükləri, pivə şüşəsində qalan pivələr… Hamısını götürüb zibil qutusuna atdım, oraları yaxşıca silib, təmizlədim və pəncərələri açıq saxladım ki, içərinin havası dəyişsin. İndi gedib rahatlıqla yeməyimi yeyə bilərəm.

Yeməyimi yeyəndən sonra keçirəm iş otağıma, bu gün albom üçün çəkdiyim şəkillərə düzəlişlər elədim. Bu, vaxtımın sürətli keçməsinə

kömək edir. Tələbə olanda xüsusilə evindən uzaqdasansa, valideynlərin, dostların, şəhərin üçün darıxarsan. Bu darıxmaq məndə də çox vaxt olurdu. Məsələn, anam üçün çox darıxıdım, onun mənə əsəbləşməyi üçün, sonra boynumu qucaqlaması üçün darıxmışam. Dostlarım üçün darıxmışam, şit zarafatları üçün, daha doğrusu bu qədər problem yığılıb boğazıma və heç kimə danışa bilmədiyim üçün sıxır məni bu "Küləklər şəhəri".

İşimi bitirdim, gedim balkona. Balkon çox gözəldi, xüsusilə axşam saatları. Günorta vaxtı o qədər də yaxşı olmur. Axşam üstü şəhərin sıxlığından başqa heç nəyi görmək olmur.

İndi isə 20:35-dir, bu vaxtı şəhərdə o qədər də sıxlıq olmur. Elə ən yaxşı vaxtlardandır gəzmək üçün. Hava bir az tutqundur, yağış yağacaq, deyəsən. Nəysə keçim içəri, televizoru açıb film yaxud da maraqlı proqram izləmək istəyirdim. Televizoru açmağıma peşman oldum. Azərbaycan nə sahədə inkişaf etsə də, televiziya sahəsində inkişafına inanmıram. Bizim şou biznesimiz bir neçə əxlaqsız topluluğundan başqa heç nə deyil. Televizor planım da belə getdi. Ən yaxşısı kitabdır! Bu gecəni kitab oxuyub yatdım.



Bu gün şənbə günüdür, saat 12-də oyanmışam yuxudan. Dünən gecə yağan yağış hiss olunur ki, təzəcə kəsib. İslanmış asfaltdan və daşlardan qəribə bir qoxu yayılıb. Dünən salonun pəncərəsini açıq qoymuşdum, tezcə gedib bağladım. Hər səhər etdiklərimi bu səhər də təkrarladım. Bu gün heç bir çəkiliş işi yoxdu deyə evdə idim. Ona görə yeməyi rahat hazırlayıb yedikdən sonra Nigara yazmağı qərara aldım. Telefonu əlimə alıb mesaj yazdım-"salam, necəsən?"

Nigar, deyəsən, yatırdı, axırıncı dəfə saat 8-də aktiv olub. Cavab gələnə qədər, siqaret alım, gəlim. Bəxtdən lift idarəsi səhər gəlib lifti düzəltmişdi. Gedib gəlməyim heç beş dəqiqə belə çəkmədi. Evə gələndə tez telefona yaxınlaşdım, amma hələ də cavab yox idi. Papirosumu yandırdım, təzəcə bir tüstü almışdım ki, mesajımın cavabı gəldi:

_Salam Fateh, mən əla! Sən necəsən?

Telefona uşaqlar kimi sarılmışdım.

_Çox sağ ol, Nigar. Səndən bir söz soruşmaq istəyirəm.

Nədənsə Nigar bu dəfə də gec cavab yazdı: iyirmi beş dəqiqədən sonra.

_Buyur, Fateh.

Mən isə eyni həvəslə telefona qaçır, bir saniyə belə gecikmədən cavab yazırdım. Bu nə qədər çox sevdiyimi açıq-açığına işarə idi.

_Nigar, paylaşdığın şəkillərə fikir vermişəm, çoxu film və kitabdandır. Deyəsən, film izləməyi, kitab oxumağı sevirsən,

Cavab yenə eyni aralıqda gəldi. Belə olanda artıq dəyərsizmişəm kimi hiss edirdim. Elə bilirdim ki, onu bezdirirəm, mənlə danışmaq istəmir

deyə düşünürdüm. Amma yenə də sevirəm onu. Bu dəfə də cavabı çox sadə bir sözdən ibarət idi:

_Bəli.

Mən isə onun bu qısa sözlük cavablarına daha dolğun, daha həcmli cavablar yazırdım.

_Nigar, mənə izləməyim üçün bir film önərə bilərsən?

Nigarın cavabları gec gəlirdi. Artıq iyirmi beş dəqiqəni də keçmişdi, cavab yox idi. Telefonu əlimə götürüb balkona çıxdım. Papiros yandırıb playlist-imdəkiən çox sevdiyim musiqi “Qaraqan-mənim qaranlığım” adlı track-i dinlədim. Musiqi dəfələrlə bitir və yenidən başa çəkirdim, amma cavab yox idi. Səbrim artıq tükənir, elə istəyirəm ki, bütün gününü mənlə keçirsin. Hər saat, hər dəqiqə, hər saniyəsini... Amma olmurdu. Bəlkə də gələcəkdə olacaqdı, lakin mövcud vəziyyətdə elə ehtimal belə yox idi. Yavaş-yavaş hava qaranlıqlaşır. Şəhərin işıqları yanmağa başladıqca düçüncələrim beynimdə oyanır. Düşüncələrim, fikirlərim oyandıqca mən yuxuya dalıram. Saatlar keçir, saatın əqrəbi dayanmır, amma Nigardan cavab gəlməyib. Saat 21:15 axşam yeməyi üçün hazırlaşıram. Günorta bişirdiyim yeməyi qızdırıb yedim. Süfrəni yığışdırmağa başladım. Birdən telefonumda səslənən musiqinin səsi azaldı, bildiriş zəngi səsləndi. Əlimdə olanları süfrəyə atıb telefona tərəf qaçdım. Axır ki, mesaj Nigardan gəlmişdi. Həyəcanla telefonumun kilidini açdım. Vaxt itirmədən Nigara yazıb filmə baxmağa başladım. Film insanda möhtəşəm təəssüratlar yaradırdı. Ustanın şagirdinə övladı kimi rəftar etməyi, nəsihətlər verməyi, onunla keçirdiyi dəyərli vaxtlar insanı duyğulandırırdı.

Film bitən kimi Nigara yazdım: filmə baxan kimi nə hiss ettimsə hamısını. Hərçənd saat gec olmuşdu və bu vaxtl Nigara yazmağım özümə düzgün gəlmədi ki, qızın gözündə düşüncəsiz biri kimi görünə bilərdim.

Amma içimdə yazacaq deyə qəribə bir hiss var idi. Hislərim məni yanıltmadı. Nigardan cavab gəldi. Bəlkə də bu film bizi daha da yaxınlaşdırdı. Çünki film haqqında düşüncələrimi söylədikdən sonra Nigarla tamamən ədəbiyyat, film mövzusunda danışırdıq. Bu da bizi daha da yaxınlaşdırırdı. Bu gecə demək olar ki, səhərə qədər danışdıq. O, mənə hansı filmləri sevdiyini, mən də ona hansı filmləri sevdiyimizi danışırdıq. Hətta sevdiyimiz yazarların, sevdiyimiz kitablardan bəzi cümlələri yazdıq. Nədənsə bu gecənin heç bitməməsini istəyirdim. Nigarla elə həvəsli danışırdım ki, hətta mesajların sonunda işlədilən emojiləri belə canlandırırdım. Saat 05:30 sağollaşdıq. Gecə yatmadım deyə səhər mənim üçün bir az yorucu olacaqdı. Amma saat 6-da yuxuya getdim. Oyananda isə artıq saat 3 idi. Bəli həftənin bazar günü idi. Bu günə tamam başqa oyanmışam. Nəinki mən hətta Bakı fərqlidir. Qışın yaxınlaşmasına baxmayaraq pəncərədən günəş şüaları otağıma düşür. İsti hava var. İlk işim telefonuma gələn bildirişlərə baxmaq oldu. Nigardan mesaj olmamasına baxmayaraq çox sevincli idim. Bir gecədə illərlə həsrətində olduğum söhbətlərdən danışdıq. Elə bil ruh əkizimi tapmışdım. Nigar çox pozitiv qızdı, zarafatlarına gülməmək olmur. Yerimdən qalxıb duş almağın yaxşı bir fikir olduğunu düşündüm. Duş qəbul etdikdən sonra nahar edib şəhəri gəzməyə çıxdım. Qaldığım evdən iyirmi dəqiqə piyada yol getdikdən sonra çatırdım. İndi də o parka gedirəm. Normalda çox adam olmur, sevgililər və yelləncək, sürüşgən

kimi oyun yerlərinə uşaqlarını gətirənlərdən başqa heç kəs olmurdu. Hərdən mən də ora gedirdim. Hər bazar günü oraya beş dəqiqəlik də olsa gedirəm. Bir növ rahatlıq gətirir. Sevgililərə baxıram, valideynlərə baxıram, bundan daha gözəl mənzərə ağlıma gəlmir. Bir ata övladını yelləncəkdə yellədirsə, bir ana övladını oyun oynayarkən belə təhlükədən qoruyursa, bu, ən gözəl mənzərədir, ən saf, ən təmiz sevgidir. Bütün bunları izləyərkən çox xoşbəxt oluram. Bir ay bundan öncə xəyallar yox idi, amma indi Nigarla uşaqlarımızı bu parka gətirdiyimizi xəyal edirəm. Bəzən düşüncələrim pis tərəfə yönəlir:əgər sevməsə yaxud da başqa birini sevirsə? Bu sualları da düşünürəm. Deyərdim ki, həyatıma artıq bu iki suala cavab tapmaq ilə davam edirəm. Çox qəribədir ki, bir tərəfdə ona çırpınan qəlbim, digər tərəfdə sevməkdən qorxan ürək... Artıq nə olsa da çox gec idi, Nigara dəlilər kimi aşiq olmuşdum. Bufetdə onunla o qədər çox danışmasaq da, səsini beynimə yazmışdım. İncə barmaqlarını, günəş rəngli saçlarını, qəhvəyi rəng gözlərini düşündükcə içimdə fırtınalar qopur sanki... Bu il mən Bakıya yola düşəndə heç ağlıma gəlməzdi ki, gəlib aşiq olacağam. Bu il də burada keçən üç ilim olacaq. Sadəcə dəyişən fənlər olacaq, başqa da heç nə. Amma yanıldım, mən aşiq oldum. Dərindən bir eh çəkib əyləşdiyim daşın üstündən qalxdım və parkdan evə tərəf getməyə başladım. Yol boyu mağazaların reklam işıqları, neon lampalar o qədər gözəl görsənirdi ki, insan baxdıqca baxmaq istəyirdi. Amma vaxt məhduddur, bir an öncə evə gedib yemək hazırlayıb dərslərimi oxumalıyam.

Evə gəlib yemək hazırladım, dərslərimi oxumağa başladım. Hərçənd universitet vaxtı o qədər də dərs oxumuruq, amma imtahan vaxtı, demək

olar ki, bir ay ara vermədən dərs oxuyuruq. Dərslərim o qədər çətin deyildi. Ona görə o qədər də əzbərləməyə və vaxt aparmağa o qədər də ehtiyac duymurdum. Dərslərimi bitirəndən sonra Nigara yazacqdım. Elə də etdim.

_Axşamın xeyir, Nigar, necəsən?

Bu dəfəki cavab məni çox gözlətmədi, üç dəqiqə aradan sonra cavab gəldi.

_Çox sağ ol, Fateh, sən necəsən?

Tez cavab yazdım və ona bu gün bir film önərmək istədim.

_Yaxşıyam, Nigar, bir film deyim izlə, ssenarisini Özcan Dəniz yazıb,

2016-cı ildə çəkilib. İmdb-si aşağı olmağa baxmayaraq çox sevirəm o filmi, izləyib mənə fikir bildirsən sevinərəm. Filmin adı "Sevimli Təhlükə".

_İndi izləyə bilməyəcəm, amma 15-20 dəqiqədən sonra, dərslərimi bitirən kimi izləməyə başlayacam.

_Oldu, Nigar. Bitən kimi təəssüratlarını gözləyirəm.

Bunu yazıb telefonu bir kənara qoydum. Artıq özüm də hiss edirdim ki, hər şey yaxşıya doğru gedir. Dünən o gecə nə yaxşı ki, filmi izləyib cavab yazmamağına rəğmən qüruru bir kənara atıb o mesajı yazdım. Yoxsa heç nə dəyişməyəcəkdi. Məncə sevgidə qürur axmaqlıqdır. Əgər sevirsənsə, qüruru kənara qoymalısan. Yox, qürurunu kənara qoymağı bacarmayacaqsansa, onda sevmə! Bu qədər asandır.

Çox güman ki, Nigar filmi bu gecə izləyib səhər cavab yazacaq. Amma yenə də saat 1-ə qədər gözləyim, sonra yatım. Hər şey necə də gözəldir. Hələ Nigarın hislərini belə bilmədən bu qədər rahat hiss edirəmsə, bu çox gözəldir. Kaş Nigarı bir az əvvəl tanısaydım. Bunun üçün çox şansım olub, amma heç cür yaxınlaşmamışam. Məsələn, keçən il universitetdə bir layihədə yer almışam.həmən layihədə Nigar da iştirak edirdi. Amma o zaman diqqətimi bu qədər çəkməmişdi, ya da mən özümü layihəyə o qədər bağlamışdım ki, ətrafıma fikir verməmişəm. Daha sonra universitetimizdə mən və qrup yoldaşım Rəşid tərəfindən təşkil olunan "Müəllimlər Günü" layihəsində görmüşəm, amma onda da yaxınlaşmamışam. Həmin günü hər şey o qədər səliqəli olsun deyə əlimizdən gəlini etmişdik. Biz onda mümkünsüzü bacarmışdıq. Daha sonra Rəşidlə mən ADU THİK-in nəzdikdə fəaliyyət göstərən "Sosial Məsələlər üzrə Departament" yaratdıq. Hal-hazırda fəaliyyət göstərir. Nigar da bu departamentə üzv olanların arasındadır. Yəni bilmirəm, əlimdə bu qədər şans varkən niyə indi? Bu sualı da az düşünmürəm.

Saat artıq 1-i keçir, mən yatsam yaxşıdır. Nigar yəqin səhər yazacaq. Telefonumun ekranına son dəfə baxıb yatdım. Səhər saat 7:00-da zəngli saatın səsinə oyandım. Telefonumun ekranına baxdım, amma heç bir bildiriş yox idi. Yəqin gecə baxıb gec yatıb, oyananda yazar deyə düşünüb yerimdən qalxdım. Səhər yeməyimi yeyib universitetə yola düşdüm. Həftənin ilk iş günü Bakı çox qəribə olur. Hər kəs işə, dərsə tələsir. Elə mən də tələsirəm. Bir an öncə vaxt getsin, saat 13:30 olsun Nigarl görüm deyə. Avtobusa mindim, yaxşı ki, arxada boş yer vardı. Pəncərənin kənarında əyləşib musiqinin səsini çoxaltdım. Universitetə çatmamış dayanacaqda düşdüm və universitetə tərəf irəliləməyə

başladım. Rəşidin uzaqdan gəldiyini gördüm, ayaq saxladım. Əslinə qalsa Bakıda bəlkə də tək danışdığım, dərdimi böldüyüm insan Rəşid idi. Çox yaxın idik. Son vaxtlar Rəşid nə qədər soruşsa da heç nə demirdim. Çox güman bu gün soruşacaq, bu gün deyəcəkdim, səbəbini bilmirəm, amma deyəcəkdim. Gəlib çıxdı.

_Sabahın xeyir, Fateh, necəsən?

_Şükür, Rəşid, sən necəsən?

_Əla! Bir söz deyim, hacı, sənə son zamanlar nə olub? Gah üzülürsən, gah dəlilər kimi gülürsən. Bütün bunlar çox qəribə deyil?

_Başa düşürəm, Rəşid. Mən də sənə onu deyəcəkdim. Rəşid, mən aşiq olmuşam. Son zamanlar ancaq onu düşünürəm, sevəcəkmi yoxsa sevməyəcəkmi deyə beynimi yoruram.

_Fateh, bu ki əladır! Sənin adına çox sevinirəm. İnan ki, hər şey əla olacaq.

Rəşidlə danışa-danışa dərs otağına qədər getdik. Zəng olmasına rəğmən uşaqlar sakit deyildilər. Rəşidlə mən də heç uşaqlarımızdan geri qalmırdıq. Rəşidə mövzu hardan olurdusa, Nigardan danışırdım. Özüm də fərqinə varırdım, amma Rəşid bir dəfə də olsa narazılıq etmədi. Əksinə dinləməyi bacarır, gözləri gülür, arabir məsləhətlər verirdi. Bir az belə keçdi. Bir şey yadıma düşdü: Nigarla yenə bufetdə görüşməli idim. Öncədən yazmadım, daha doğrusu, vaxt olmadı. Dərsdə müəllim sıxışdırırdı, tənəffüsdə uşaqların əlindəntelefonumu götürüb kənara çəkilə bilmədim. Saat 12:00-da yenə birinci mərtəbəyə düşdüm. Telefonu cibimdən çıxaranda gözlərimə inanmamışdım. Nigardan mesaj

vardı! O an ki sevinc, gülümsəmə, xoşbəxtlik kimi heç hiss etmədiyim duyğuları yaşayırdım. Telefonu açdım, mesaj dünənki filmlə bağlı idi.

_Salam Fateh, necəsən? Dünən filmə baxdım, çox gec idi deyə yazmadım. Çox əla film idi. Bir şey deyəcəm. Sabah saat 12-də universitetdə olacam. əgər boş olsan, bufetə gələrsən?

Mesajı oxuyan kimi bufetə tərəf qaçmağa başladım. Bufetin pilləkənlərini düşəndə son dərəcə ehtiyyatlı olmaq lazım idi. Çünki çox tələbə çay və yaxud da kofe alıb çıxırdı pilləkənlərdən. Aha Nigar oradadır. Amma yanında o qız var. Nəysə yaxınlaşım. Nigargilin masasına tərəf yaxınlaşdım. Məni görər-görməz nigar ayağa mənə doğru gəldi. Əlini uzadıb əlimi sıxdı.

_Salam Fateh, mesajı oxudun?

_Salam Nigar, oxudum. Filmi bəyəndiyinə sevindim.

_Buyur, Fateh, əyləş.

Asimana da salam verib əyləşdim Nigarın yanında. Asiman pis qıza oxşamırdı, olduqca zarafatcıl və şən biri idi. Onlarla oturduqca vaxtım necə keçir bilmirəm. Nigarın gözlərinə baxdıqca yenidən aşiq oluram. İçimdən bir qüvvə sanki bütün gücümlə qışqırmağımı əmr edir “səni sevirəm” deyə... Amma bir tərəfdən də bu sözü işlətsəm, Nigarın mənim üzümə baxmayacağımı deyir. Mən hər dəfə ikinci variantı seçirdim. Çünki lazımi vaxtın olmadığını düşünmüşəm.  Nigarla son iki həftəni yaxınıq və ondan mənə qarşı hislərin olmasını gözləmirəm. Onun üçün də zaman hər şeyin çarəsidir deyib gözlərinə baxmağa davam edirəm.

Asiman tez-tez qol saatına baxır, sanki dəqiqələri sayırmış kimi. Asiman saatına bir daha baxdıqdan sonra “Nigar, mən getdim, görüşərik” dedi və bizdən ayrıldı. Nigar da arxasıyca təəccüblə baxıb “sağ ol” dedi. Bir neçə dəqiqə sükut oldu, o susur, mən susmuşam. Qəribə bir yalnızlıq var, sanki ikimizdə nə biz oluruq, nə də sən və mən... Dəfələrlə Nigar da, mən də ikimiz sözünü işlətmişik, ya da adlarımızı ard-arda deyib öz-özümüzə gülmüşük.

_Nigar, demişdin şəkillərini çəkim, nə vaxt istəyirsən?

_Hə Fateh, 3-cü gün uyğundur sənə?

_Saat neçədə?

_Saat 14:00-da

_Axı həmin günü dərsin var sənin.

_Yox Fateh, 3-cü günlər dərsim axırıncı saata düşüb. Həm də müəllimə gəlməyəcək deyə əvvəlcədən keçib o dərsi.
_Hə anladım. Onda 3-cü gün saat 14:00-da səni harada gözləyim?
_KFC-nin qabağında.
_Oldu, onda gözləyəcəm. İndi isə mən gedim, səndə dərsə get.
_Sağ ol Fateh, görüşənədək.
_Sağ ol, Nigar!
Deyib masadan qalxdım və evə tərəf yola düşdüm. Yol boyu Nigarı düşünürəm, evə çatıram Nigarı düşünürəm. Gecə yatıram Nigarı düşünürəm. Belə getsə başımı itirəcəm.

Nəysə sabah universitetə gec gedəcəm. Birinci saat dərs yoxdur. Bunun üçün əla bir film tapdım “Allah Yaxındır”. Film Cənubi Azərbaycanda

çəkilib. Çox əla bir filmdir, eşqi doğru-düzgün izah edən tək filmlərdəndir. Yavaş-yavaş havalar soyuyur deyə, balkondan stulu içəri keçirirəm. Pəncərələrin hamısını yaxşıca sıxıb bağlayıram. Başım ev işlərinə qarışır deyə vaxt sürətli gedir. Saat 8-də artıq yemək yeyib film izləməyə başlayıram. Filmi təzəcə açmışdım ki, telefona bildiriş gəldi. Ürəyim həyəcandan sürətli döyünməyə başladı. Bu Nigardı? Başqa biri ola bilməz. Nigardan mesaj gəlmişdi. Sevincdən gözlərim doldu, əllərim titrədi. Mesajı filmlə bağlı idi: "Fateh, axşamın xeyir. Dünən film zövqünün möhtəşəm olduğunu hiss elədim. Mənə bu gün də izləyə biləcəyim film önərə bilərsən?" Mesajı tez oxuyub cavab yazdım: "Bəli Nigar, önərim. Hətta özüm indi bir film izləyəcəkdim, elə onu deyim, izlə. "Allah yaxındır". Mesajı göndərdim, saniyələr keçməmiş cavab gəldi: "Çox sağ ol, Fateh". Artıq Nigarla olan yaxınlaşmanı hiss edirdim. Fərqlər göz qabağında idi. Zaman hər şeyə çarədir. Həqiqətən də elədir, Nigarla bir ay bundan əvvəlki halımıza baxıram və indiki halımıza baxıram. Nələr keçib, nələr dəyişib. Həyəcanla növbəti günü gözləmək, şəkillərini çəkmək, möhtəşəm gözəlliyi qarşısında aciz qalan gözlərim… Ehh kaş bircə dəfə sarıla bilsəydim, ətrini sinəmə çəksəydim, saçlarını hörə bilsəydim, əllərini tuta bilsəydim. İçimdən deyib filmə başlayıram. Film o qədər də, uzun deyildi, 1 saat 25 dəqiqəlik idi. Film bitər-bitməz telefona baxdım, bildiriş yox idi. Mətbəxə keçib çay dəmlədim. Salona qayıdanda yenə telefonuma baxdım. Bu dəfə Nigardan mesaj gəlmişdi.

_Fateh, əla bir film idi. Səhnələri həqiqətən təsir edirdi insana. Eşqi başa salan çox gözəl bir film idi.

_Buyur, nə zaman istəsən.

Artıq çox gözəl hiss etməyə başlayırdım. Münasibət çox irəliləmişdi. Belə getsə yaxın bir zamanda düşüncələrimi, hislərimi Nigara açıqlayacam. Saat gecə 2 ə qədər danışmışıq Nigarla və sağollaşıb yatdım. Səhər saat 9-da oyandım. Səhər yeməyini yeyib, evi də biraz düzəliş edib universitetə getdim. Hər gün olduğu kimi, Rəşidlə görüşüb, planlarımız haqqında müzakirə etdik. Daha sonra dərsə girdik. Sinif hər zaman necə, indi də elə idi. Səs-küy, müəllimin də uşaqları sakitləşdirmək adı ilə əlini partaya çırpmağı adamı əsəbləşdirirdi. Amma çox müəllim eyni səhvi edirdi. Əllərini partaya çırpıb həm özlərinə həm də bizə işgəncə edirdilər.

Bu gün dərsim saat 12-də bitdi. Nigarı görmək üçün gözlədim saat 2-nin yarısına qədər. İlk başlardakı kimi o yenə ətrafa gülüş saçaraq gəlir, mən uzaqdan seyr edirəm. Salamlaşıb dərsə tələsdiyini dedi və getdi. Bu gün işim yox idi, amma ani bir zəng və məktəblilərin Quba turuna çəkilişə çağırıldım. Adətən bu zamanlar rayonlara getmirdim, amma bu gün nədənsə gedəsi oldum. Məni gəlib 28 May metrosunun qarşısından götürəcəkdilər. Onun üçün evə tələsik gedib aparatımı götürdüm və qayıtdım. Beş dəqiqə gözləməli oldular. İyirmi beş nəfər şagird, iki valideyn və bir müəllimə vardı. Deyəsən, sinif rəhbəri idi. Məni şirkət tərəfindən tapmışdılar. Məktəblilərlə Quba turu maraqlı keçirdi, elə gördükləri hər yerdə “əmi belə çək, burda çək”  kimi ifadələri və möhtəşəm təbəssümləri ilə göz oxşayırdılar. Həqiqətən, bu aralar istirahətə çox ehtiyacım var. Sabah Nigarın da şəkillərini çəkim. İstirahət günlərini rayona gedim, ya da başqa bir bölgəyə. Bircə şəhərdən iki günlükdə olsa ayrılım. Axşam saatlarında geri qayıtdıq. Mən evə çatanda saat 23:00 idi. Hər şey çox gözəl olsa da yorğun idim.

Yemək yeməyib birbaşa yerimə uzandım. Telefonumun enerjisi bitmişdi. Onu enerjiyə taxıb təkrar yatağıma sarıldım.




Səhər günəş şüalarının pəncərəmdəki əksi ilə yuxudan oyandım. Deyəsən, dərsə gecikəcəm. Yerimi yığıb evdən çıxdım. Yolda telefonumu açdım. Nigardan altı mesaj vardı.

_Fateh, sabab yadından çıxmaz ki?

_Fateh?

_Heyy?
_?
_??
_:((( Fateh, sabah gecikmə, səni gözləyəcəm.
Nigarın bu mesajlarını oxuduqca içimdəki hisslərim güclənir və qırılmaz zəncirə çevrilirdi. Oxuduqdan biraz sonra cavab yazdım ki, “mütləq gələcəm ağlımdadı”.
Artıq elə düşünürdüm ki, Nigar da mənə qarşı nəsə hislər var. Bu düşüncəm məni həddən çox sevindirirdi. Vaxtımın çoxunu Nigarla keçirmək, onun haqqında yeni şeylər öyrənmək istəyirdim. Bu gün əla şansdır. Saat 12-nin gəlməsini səbirsizliklə gözləyəcəm. Birinci saat dərsimiz asan fənn olmasına baxmayaraq müəllim çox ciddi idi. Zarafat xoşlamırdı deyə tələbələrin çoxu onun dərsinə girmirdi. İkinci saat fənn müəlliməmiz çox yaxşı bir idi. Dəfələrlə işimə görə icazə istəmişəm verib. Bu gündə icazə alası idim: saat 11:30-da universitetdən çıxmaq üçün. Çox sağ olsun ki, istəyimi geri çevirmədi.



KFC-ə tərəf düşürəm və Nigarı ilk gördüyüm yer 28 Mall-ın qarşısı. O təlaşlı baxışları hələ də ağlımdadı. Onu gördüyüm ilk anda necə hislər keçirdimsə, indi eyni həyəcan eyni hislərlə görüşünə gedirəm. Saat 11:56 -da KFC-nin qabağında idim. Nigar hələ görünmürdü. Papirosumu yandırıb ətrafa boylanmağa başladım. Nigar uzaqdan gəlirdi, məni görər-görməz əl etməyə, gülümsəməyə başladı. Papirosumu söndürdüm, ona tərəf irəliləməyə başladım. Gəldi salamlaşdıq.

_Fateh, hara gedək?

_Bilmirəm, hara istəyirsən?

_İçərişəhər olar?

_Gedək!

Nigar yanımda addımladıqca şıltaq təbəssümü ilə özünə heyranlıq,

asılılıq yaradırdı. Təsadüfi şəkillərini çəkib, göstərirdim və təəccüblənirdi. İçərişəhərə çatana kimi altmışdan çox şəklini çəkmişdim. Hər şəklini göstərəndə çox qəribə baxışı və o möhtəşəm səsi ilə "Faaateeh, bu çooox gözəl olub" deyirdi. Bəlkə də, o sözü bu gün yüz dəfədən çox eşidəcəm, amma səsinə aşiq idim. Mən indiyə qədər belə olmamışdım. Universitetdən, tələbə yoldaşlarım qızların da şəklini çəkmişdim onlardan eyni sözləri eşitmişdim, amma Nigarın səsində günün 24 saatını eşitməyə razı idim.

İçərişəhərə çatdıq, Nigar çantasını və digər əşyalarını yanımızdakı pəncərinin qarşısına qoydu.
_Fateh, de görüm necə dayanım? Harda dayanım?
_Nigar, biraz sağ tərəfə çəkil, bir ayağını qabağa elə və pəncənin üstündə dayan. Əllərindən sağ əlinlə saç telini geri edirmiş kimi saçına toxundur.
_Belə?
_Aha dayan bir saniyə, çəkdim.
Demək olar ki, bir şəkli dəfələrlə çəkirdim. Yerləri, pozaları dəyişirdi, amma onun gözəlliyi qarşısında aciz qalan mən dəyişə bilmirdim. Özümü bir təhər toplayırdım, müxtəlif fonlar deyirdim və günün bitməməsi üçün yalvarırdım. Hərçənd saatın əqrəbləri öz işini görürdü. Vaxt o qədər tez keçdi ki, dörd saat necə gəldi, necə getdi anlamadım.
_Fateh, çox sağ ol!
_Buyur, Nigar, nə zaman istəsən.



Sağollaşdıq və Nigar metroya minib evə getdi. Mən isə bulvara gedib, dənizin kənarında biraz əyləşdim. Biraz beynim dincəlsin, həm də sakitləşmək istəyirdim. Papirosumu yandırıb, su ləpələrinin sahildəki daşlara toxunaraq yoxa çıxması və yenidən digərlərinin eyni harmoniya ilə davam etməsi bir növ terapiya kimi idi. Bəzən iki saat, bəzən də daha artıq əyləşirdim. Bu gün qərarsız idim. Çox qalmaq istəyirdim amma görəcəyim işlər və yorğunluq… Bir saata yaxın əyləşdim, daha sonra evə tərəf yol aldım. Üstümdə çox böyük bir yorğunluq vardı. Gəlib Nigarın şəkillərinə baxırdım, gözləri çox gözəldi. Çox gözəl gülür, aa burda möhtəşəmdi və o ilk dəfə gördüyüm o təlaşı sanki bu ani çəkdiyim şəkildə tapdım. Həmən şəkli o dəqiqə çıxardım və oxuduğum kitabımın arasına qoydum. Sonra isə şəkilləri Nigara göndərdim və Nigar üçün şəkillərindən ibarət albomu düzəltməyə başladım. İlahi zaman bu qədər tez necə gedir? Artıq hislərimdən çox əmin idim. Nigarla da istədiyim yaxınlığı qurmağı bacarmışdım. Məncə heç bir əngəl yoxdur Nigara sevdiyimi söyləməyə. Bütün gücümü yığıb sabah qarşısına keçib hər şeyi danışacaqdım. Lakin yenə çəkindim və qorxdum. Bir az vaxt keçsin dedim və ona uyğun hərəkət etməyə başladım. Bu aldığım qərarın ilk həftəsində demək olar ki, Nigarla hər gün görüşürdüm. Münasibətimiz çox yaxın idi. Hətta günün 10-12 saatını telefonla yazışırdıq. Ara bir zəngləşirdik. Beləcə vaxt gedirdi və mən o utancaq, çəkinmək, qorxaq hislərimi dəf edirdim. Zaman isə öz sözünü deyirdi.

Artıq qış fəsli gəlir, dekabr ayının ortaları. Nigarla yenə görüşdük, bu dəfə fərqli idi. Heç bir söz demədən sarıldı mənə, içim getdi, o an nə edəcəkdim bilmirdim.

İki əli ilə boynuma sarılmışdı. Mən isə donub qalmışdım, əllərim havada

asılı idi sanki, boğazımı uzadıb çiyinlərinin üstünə aşırmışdım. O an susmuşduq və Nigar sükutu pozdu.
_Fateh, gedək?
O qədər qəribə olmuşdum ki, dilim də söz tutmurdu. Nigarın səsini belə çox çətin eşidirdim. Bir təhər özümü topladım.
_Ihh ııı, həə gedək Nigar .
_Fateh, sən mənim ən yaxın, ən yaxşı Dostumsan.
Nigar mənə dostu kimi sarılmışdı. O an çox pis hiss elədim özümü. O, məni dostu bilir, mən isə ona dəlilər kimi aşiqəm. O, mənə dost kimi sarılıb, özünü qollarıma əmanət edib, mən isə sırf aşiqəm deyə, tək bir dəfə də olsun deyə ətrini sinəmə çəkim deyə sarılmışdım. Nə qəribə bir hal idi. Gözlərim çox dolmuşdu, ani kənar bir müdaxilə olsa ağlayacaq qədər olmuşdum. Bütün bunlara baxmayaraq "elə sən də mənim, Nigar" dedim. Yolumuza getdik, yol boyu qolumdan tutub irəliləyirdi. Bu gün Nigarla görüşüb axırıncı dəfə gəzdik. Mən rayona getməliydim bir həftəlik. Gəzəndən sonra Nigar məni 28 May metrosunun yanından yola saldı. Yenə qucaqladı bərk-bərk, qulağıma fısıltı ilə "bax çatanda xəbər verməyi unutma! Bir də xalaya salam de" deyirdi.



Sağollaşdıqdan sonra mən avtovağzala gəldim və Ağstafaya yola düşdüm. Bir həftə görməyəcəm onu, çox üzülürdüm. Yol altı saatlıq idi, ona görə də qulaqcığımı taxıb yatdım. Gözümü açanda isə artıq Tovuzu keçmişdik və Ağstafaya on dəqiqəlik yolum qalmışdı. Dostlarım Nicat və Rafiqə zəng vurdum. Çünki bu həyatda, onlardan başqa yaxınım və yaxud da güvənəcəyim ikinci bir dostum yox idi. Çox sağ olsunlar heç bir sözümü yerə salmırdılar. Dünəndən demişdim gələcəyimi, kim bilir, bəlkə də orda gözləyirlər bu dəqiqə? Bilmək olmaz.
Nicata zəng vurdum. Telefonu götürdü.
_Alo qardaşım, hardasız? Mən beş dəqiqəyə avtovağzala çatıram.
_Qardaşım, avtovağzaldayıq, gözləyirik, gəl.
_Hə gözləyin.
Evə yaxınlaşdıqca sevincim artırdı. Avtobusdan düşən kimi Nicatla, Rafiq yanıma gəldilər, görüşdük və yola düşdük evimizə tərəf. Eyni məhlədə qalamasaq da evlərimizin arasına on dəqiqəlik yol vardı. Yol boyunca söhbət elədik, hal-əhval tutduq. Uşaqlara Nigardan bəhs elədim. Xoşbəxtlik arzuladılar, mənim adıma sevindiklərini dedilər. Evimizə çatdım, Tanrı bu rahatlıq harada var? Anamı bərk-bərk qucaqladım. Nənəmlə görüşdüm, nənəm zarafatcıl qadındı. Atmacaları dillər əzbəridi, saçım uzun olduğundan davamlı saçıma ilişirdi. Bu dəfə də eynən oldu. Onları çox sevirdim, ailəm idi mənim. Həyatım onlarla keçib sadəcə bu son üç ili bir arada çox az vaxt keçirmişik. Anama və nənəmə Nigarın salamını çatdırdım. Anam soruşanda yaxınımdı dedim. Biraz danışdıq və gec olduğunu deyib yerimə gedib yatdım. Səhər açılan kimi görəcəyim işlərin ardınca getdim. Telefona baxdım, Nigardan nə qədər mesaj gəlib. Qız narahat oldu, dünən də yazmadım heçnə. Zəng

vurub hər şeyin yaxşı olduğunu dedim və səsini eşitdim. Bilmirəm bu bir həftə necə keçəcək, amma indidən darıxdım onun üçün. İşlərimi bitirib evə gələndə artıq qaranlıq düşmüşdü. Anam yemək hazırlayıb stola çağırdı. Yeməyimi yeyəndən sonra, çay içib yatdıq. Təbii ki, yatmazdan öncə Nigarla danışdım. Bu gün nə işlə məşğul olmuşam, neynəmişəm hamısını dedim. Belə getsə bu bir həftə tez bitəcək. Elə düşündüyüm kimi olurdu. Evə gəlirdim anamla, nənəmlə söhbət edirdim, hərdən qohumlarım gəlirdi, danışırdıq və vaxtın necə keçdiyini bilmirdim. Artıq rayondakı beşinci günüm idi. Sabah Bakıya qayıdacağam ki, sonuncu dərs həftəsinə qayıbla başlamayım. Əslində bir həftəni Bakıda qalıb gəlsəydim yaxşı olardı. Lakin işlərimə görə tez gəlməli oldum. İndi də iki dəfə gəlib gedəcəm və yol yorğunluğu özünü göstərəcək. Sonuncu gün dostlarımla oldum. Bu anlar deyərdim ki, ən dəyərli anlarımızdır. Birlikdəyik, deyirik, gülürük. Hərdən problemlərimizi danışıb, biraz hüzünlənirik amma bu anlar çox gözəldi. Elə oturduğumuz yerdən bizə gəldik və mənim çiyin çantamı götürüb evdən çıxdım. Gecə saat 2 də avtobusum yola düşəcəkdi. Nigar bilirdi və oyaq idi. Hər dəqiqə yazıb harda olduğumu soruşurdu. O, mənlə maraqlanırdı, mənə dəyər verirdi. Çox xoşbəxt olurdum. Düşünürdüm və bu həftə ərzində Nigara öz hislərimi deyəcəkdim. Bu dəfə nə olur olsun mütləq deyəcəkdim!

Səhər saat 8:00-da Bakıya çatdım. Evə getməyə vaxt olmadı. Birbaşa universitetə yola düşdüm. Sonuncu dərs həftəsi idi deyə müəllimlər uşaqlarla söhbətləşirdi. Dərsdə deyib gülürdük. Nigar saat 12-də foyedə gözləyəcəyini demişdi. Foyeyə düşdüm, orada idi. Küncdəki divanda əyləşmişdi. Ona uzaqdan baxmaq, təlaşlı baxışlarına, hərdən qayğıkeş olmağına çox aşiq idim. Vaxt itirmədən yanına yaxınlaşdım.

_Necəsən, Nigar?
_Yhaa Fateh, çox darıxmışam sənin üçün.
Dedi və yenə də qucaqladı. Saat 14:00-da dərsə gedəcəkdi. Bu dəfə onun şəkillərini universitetin içərisində çəkirdim. Mən istəyirdim ki, bir an öncə dördüncü gün gəlsin və hər şeyi deyim. Artıq tələsirdim, hislərini öyrənmək istəyirdim. Əlindən tutub, sənə dəlilər kimi aşiqəm demək istəyirdim. Deyəsən, Allah da məni eşidirdi. Vaxt o qədər tez gedirdi ki, dünən yaşadıqlarımı sanki bir saat öncə yaşamışam kimi hiss edirdim. Və o möhtəşəm gün gəldi. Nəhayət sonuncu gün, bu gün ya ömürlük xoşbəxt olacam, ya da ömürlük xaraba qalacaq qəlbim. Bu gün ümumiyyətlə universitetdə dərs keçirilmədi. Tədbir var idi və bütün universitet tələbələri orada idi. Nigar da çox keçmədi gəlib çıxdı. Ürəyim yerindən çıxacaq kimi döyünürdü. Onu görəndə qəribə oldum, dilim loğalaqlandı. Dj musiqinin səsini çoxaltdıqca mənim də qəlbimin döyüntüsü çoxalırdı. Nigarın qulağına fısıldadım:
_Nigar, sənə bir söz deməliyəm, amma bilmirəm necə deyim? Olar iki dəqiqəlik burdan çıxsaq?
_Çıxaq, Fateh.

Nigarın əlindən tutub, beşinci mərtəbəyə çıxardım. Hər pilləkəni çıxdıqca içimdəki o təlaş daha da böyüyürdü. Necə deyəcəm deyə düşünürdüm.
_Nigar, bilirsən necə? Mən bunu deyəndən sonra aramızdakı münasibət dəyişə bilər. Hər nə olur olsun, məndən soyumayacağına söz ver!
_Söz verirəm, Fateh.
_Mən səni ilk gördüyüm gündən bəri aşiqəm!!!

Dedim və Nigar təəccüblə üzümə baxdı, nə deyəcəyini bilmədi. Necə dedim? Az qala ağlıyırdım, ürək döyüntüm o qədər çoxalmışdı ki, səsi artıq eşidilirdi. Nigar cavab demirdi. İkimiz də bir-bizimizə baxırdıq. Və təkrar da bu dəfə ayağa qalxıb var gücümlə qışqırdım “NİGAR, SƏNİ ÇOX SEVİRƏM!!!”



Tofiq Vəliyev

# Eşqin Surəti

Redaktor: Cəmilə Kərimova

Dizayner: Nigar Əpiyeva

Bakı-2019